Xalq qəzeti.-2021.- 26 iyun.- S.10.




# Avro – 2020-nin qrup mərhələsi nə ilə yadda qaldı?

## *Futbol komandalarının və ulduzlarının fərdi statistikası*

***Avropa çempionatının qrup mərhələsi 36 qarşılaşma ilə tarixə qovuşdu. Bu, Avro – 2020-də oynanılacaq matçların 70 faizi deməkdir. Kontinentin 8 yığma komandası, tam 3/1-i ya məyus olub evə döndü, ya da sadəcə bu beynəlxalq yarışda iştiraklarına son verdilər. Avro – 2020-nin 8/1 final qarşılaşmaları öncəsi yaranan fasilədən istifadə edib kontinentin futbol tarixinə yazılan qrup mərhələsinin rəsmi statistikasına nəzər yetirməyin və oyunların qəhrəmanlarını və antiqəhrəmanlarını tanımağın əsl vaxtıdır. Hazırkı Avropa çempionatında artıq 464 futbolçu iştirak edib. Onlardan 88-i 3 matçın heç birində əvəzlənməyib.***

### Qoleadorlar

Kristiano Ronaldu 5 qolla qrup mərhələsinin lideridir. Doğrudur, bunlardan 3-nü portuqaliyalı hücumçu 11 metrlik cərimə zərbəsindən vurub. Ancaq bunu da Avropa çempionatında vurmağı bacarmaq lazımdır. Elə götürək İspaniya millisini, iki oyunda iki 11 metrlik cərimə zərbəsini qola çevirə bilməyib. Bununla belə, Avro – 2020-də Ronaldu yeni rekorda imza atdı. İndi o, Dünya və Avropa çempionatlarında ən çox qol vuran futbolçudur. Bu göstəriciyə görə Kriştiano Gerd Mülleri və Miroslav Klozeni geridə qoydu. Kristiano Ronaldu həm də milli komandada qol sayına görə illərlə rekordu təkrarlanmayan İran millisinin keçmiş hücumçusu Əli Daeyiyə





çatdı. Portuqaliyalı qoleadorun növbəti qolu 110-cu olacaq ki, bu da mütləq dünya rekordu olacaq. Buna isə Protuqaliyalının şansı var.

Hərəyə 3 qol vuran futbolçular isə Çexiya millisindən Ptrik Şik, Forsberq, hollandiyalı yarımmüdafiəçi Jorjinyo Veynaldum və Polşa yığmasının kapitanı Robert Levandovskidir. Yeri gəlmişkən Levandovskinin bu oyunçulardan yeganə fərqi onadadır ki, komandası növbəti mərhələyə vəsiqə əldə edə bilməyib.Komandalardan hərəyə iki qol vuran 12 futbolçu qeydə alınıb.

Oyunda iştirak etdiyi dəqiqələri qola çevirə bilən ən yaxşı statistika Almaniya millisinin “xilaskarı” Qoretskidir. Bu futbolçuya oyunda qol vurmaq üçün cəmi 49 dəqiqə lazım gəldi. Orta hesabla 54 dəqiqəyə bir dəfə yalnız Ronaldu fərqlənə bilib. Yeganə qol üçün Klassona 59 dəqiqə lazım gəlib. 79 dəqiqə oynamağa qol vurmağı bacaranlar isə Patrik Şik və Linetti olub. Şikin göstəriciləri daha yüksəkdir, çünki 236 dəqiqədə 3 qola imza atıb.

### Qola çevrilən ötürmələr

Ötürmələri qola çevrilən oyunçular da elə çox deyil. Hərəyə 3 assistlə Avstriya millisinin oyunçusu David Alaba və İsveçrə yığmasının üzvü Çuber olub. Alabadan fərqli olaraq isveçrəli meydanda cəmi 118 dəqiqə top qovub. Hamıdan səmərəli olan isə Kulisevski olub. Ona iki səmərəli ötürmə etmək üçün bir hissənin 35 dəqiqəsi də bəs edib. Yəni hər qola çevrilən ötürmə etmək üçün futbolçuya 17,30 dəqiqə lazım gəlib. Rafa Silvanın göstəricisi 25,5 dəqiqəyə bərabərdir. Çuberin qol ötürməsinə isə 39 dəqiqə vaxt lazım gəlib.

### Qol üstəgəl ötürmə

Bu göstəricidə də Ronaldu 6 xalla (5+1) hamını geridə qoyur. Hollandiyalı hücumçu Memfis Depay 4 xalla ikincidir. oyunçu isə 3 xal toplayıb. Bir dəfəyə daha yüksək sürət nümayiş etdirənlər isə İtaliya millisinin oyunçusu Spinaççola və 30 yaşlı futbolçu Neqodur – saatda 33,8 kilometr. İlk beşliyə isə daha 3 nəfər düşüb. Saatda 33,7 kilometr sürətlə Koman 3-cü , saatda 33,6 kilometr sürətlə hollandiyalı futbolçu Qakpo 4-cüdür. Onlardan dərhal sonra isə saatda 33,5 kilometr sürətlə uelsli Ceyms gəlir.

Üç tura daha çox məsafə qət edən oyunçu isə 36 kilometr distansiya ilə rusiyalı forvard Qolovindir.

Qələbəyə aparan və məyus edən qollar



Avro – 2020-nin qrup mərhələsində cəmi 94 qol vurulub. Orta hesabla bir oyuna 2,61 qol düşür. Statistikaya görə ən çox qol mərhələnin sonuncu – üçüncü turunda vurulub. Bu turda komandalar qapılardan 39 top – hər oyunda 3,25 qol keçiriblər. İlk turda qapılara 28, ikinci turda 27 qol vurulub.

27 qol sol ayaqla vurulub, 14 qol başla. 41 top isə qapılardan sağ ayaq zərbəsi ilə keçirilib. Burada da Kristiano 3 qolla birincidir. Cərimə meydançasından kənardan endirilən zərbələrin isə 12-si qolla nəticələnib. Ən yddaqalan və ideal qolun müəllifi isə Çexiya millisinin futbolçusu Patrik Şikdir. Ronaldu 5 qolunun, demək olar, hamısını 11 metrlik məsafədən vurub.

Qapıya zərbələrin sayına görə polşalı futbolçu Levandovski birincidir. Forvard üç turda qapılara 12 zərbə endirib. Ronaldu ondan 1 zərbə az vurub. Qapılara 10 zərbə endirənlər isə Şik, Morata, Embolo, Veynaldum, İmmobile, Breytueytdir.

Qapı çərçivəsinə endirilən zərbələrin sayına görə 3 futbolçu 6 dəqiq zərbə ilə fərqlənir: Ronaldu, Şik, Morata. Bu zərbələrin qola çevrilməsi isə müvafiq olaraq 5, 3, 1-dir. Çərçivədən kənara zərbələrdə isə İmmobile və Morenoya bərabər olanı yoxdur. Levandovski və Traykovski hərəyə iki dəfə qapı çərçivəsinin “keşikçisini” narahat ediblər. Bəlkə elə bu toplar qol olmadığı üçün onların komandası pley-offa çıxa bilmədi.

Nəhayət, qapı çərçivəsindən geri qayıdan topları qola “çevirmək istəməyən” daha çox şotlandiyalı Makqin və Finlandiya millisinin oyunçusu Poxyanpalo oldular. Onların hərəsinin 5 zərbəsi qarşısı alınıb.

Ən dəqiq və daha çox ötürmələrə gəldikdə isə, düşünmək olardı ki, bu göstəricidə ispan millisinin heyətinə çətin çatan ola. Lakin statistika fərqli nəticə göstərir. Doğrudur, dəqiq ötürmələrə görə top-dördlüyə 3 ispan – Alba, Laport və Koke də düşür. Lakin bu parametrlərə görə ən yaxşı futbolçu 314 dəqiq ötürmə ilə almanların yarımmüdafiəçisi Toni Kroosdur.

Qola istiqamətlənən hücum fəaliyyəti

Turnirdə ən çox künc zərbəsi vuran David Alabadır. Onun vurduğu 15 künc zərbəsindən yalnız biri qolla nəticələnib. Meydanın küncündən hərəyə 14 dəfə topu müxtəlif istiqamətə vuranlar Zelinski və Robertson, 12 dəfə Depay, hərəyə 11 dəfə Rodriqes və Koke olublar. Rusiya millisinin kapitanı Dzyubadan çox oyundan kənar vəziyyətə düşən olmayıb. Hakimlər 7 cəhdini qeydə alıblar. Yaxın izləyiciləri isə Lukaku, Yılmaz, Qavranoviçdir ki, hərəyə 4 dəfə oyundankənar vəziyyətə düşüblər.

Ən çox driblinq edən isə Fransa millisinin dünya futbol ulduzu Mbappedir. 17 driblinqinin qeydə alınmasına baxmayaraq, ulduz futbolçu hələ ki, turnirdə fərqlənə bilməyib. Onun izləyiciləri isə danimarkalı futbolçu Meledir– 15 driblinq. Onlardan sonra isə 12 driblinq nümayiş etdirən Veynaldium və Şoll gəlir.

### Xilaskar qapıçılar

Ən çox seyv - qurtarışa imzasını atan, turniri hamıdan tez tərk edən Türkiyə millisinin qapıçısı Uğurcan Çakır olub. Çakır 18 dəfə əla reaksiya göstərməklə qapısını qollardan xilas edib. Ondan sonra 14 qurtarışla Dimitrievski, Qradeçki və Uorda gəlir.

11 metrlik zərbələri dəf etməkdə isə hələ ki, yalnız 4 qapıçı öyünə bilər – Buşan, Dimitrievski, Qradeçki və Dubravka. Maraqlıdır ki, hər üç qapıçı slavyandır. Sonuncu ikisi isə avtoqolla da fərqləniblər.

### Oyun intizamı

Mütəxəssislər qeyd edir ki, hakimlər bu çempionatda heyrətamiz dərəcədə mərhəmətli görünürlər. 36 qaşılaşmada cəmi 2 qırmızı vərəqə göstərilib. Onların biri Krıxovyak, biri də Ampaduya. Bu, həqiqətən məsələn, Çempionlar liqası ilə müqayisədə nonsensdir. Sarı vərəqələr də elə çox olmayıb. Krıxovyak ikisi bir matçda olmaqla, 3 sarı vərəqə “qazanıb”. Çalxanoğlu, Söyünçü, Borjil, Alioski, Duda, Botko və Lovren hərəyə iki sarı vərəqə görüblər. Daha 80 futbolçunun da hərəsinə bir sarı vərəqə göstərilib.

Maraqlıdır ki, Avronun ən çox qayda pozan oyunçusu Kuçka hakimlər tərəfindən cəzalandırılmayıb. Slovakiyalı 10 dəfə qayda pozub. Fiolinin göstəricisi 9, Dzyuba və Kantenin göstəricisi 8-dir.

Avro – 2020-də maraqlı və diqqət çəkən statistika çoxdur və onlar hələ əlavələr də çox olacaq. Biz çempionat davam etdikcə onlar haqqında oxucularımıza məlumat verərik.

***İlqar RÜSTƏMOV,***
***“Xalq qəzeti”***